Cənublu qardaşlarıma

A DOSTLAR

Yenə qaşlarınız niyə çatıldı,
Deyin, qəlbinizdə nə var, a dostlar?!
Söyləyin, hər yandan sıxırmı sizi,
Qalın daş divarlı hasar, a dostlar!..

Toxundu qəlbimə bu gün bir baxış,
Bilirəm, çox vurub onu qar, yağış...
Sizi qorxutmasın nə boran, nə qış,
Gələr mövsimində bahar, a dostlar!..

Boşa getməyəcək axan bu qanlar,
Bu vəhşi qırğınlar, vəhşi talanlar,
Bir gün döyülənlər, ayaqlananlar
Öz intiqamını alar, a dostlar!..

Vaxt olar burada dəyişər zaman:
Dağların döşündən çəkilər duman,
Xalqın aşıqları Ərkin[1] başından
Sədəfli sazını çalar, a dostlar!

Şərəfli bir ümid, böyük bir inam,
Bizi düşündürür hər səhər-axşam...
Haraya üz qoysam, harada olsam,
Əliniz əlimdə qalar, a dostlar!

Təbriz, aprel, 1942

[1] *Ərk* *Təbrizdə qədim bir qaladır.*

BİRİNCİ DƏRS

(Təbriz məktəbində)

Məktəb al geyinir bayram qabağı,
Onun yollarına güllər tökülür.
Şəndir müəllimin qaşı-qabağı,
Körpə uşaqların gözləri gülür...
Şahın şəkli yoxdur, divara bax bir,
İndi Səttarxandır seyr edən bizi.
Əziz körpələri görüb sevinir
Nizami, Füzuli, Saib Təbrizi...
Müəllim şagirdə dedi inamla:
Gəl yaz, söz azaddır indi ölkədə...
Gəlib çox həvəslə, çox ehtiramla,
İki kəlmə yazdı şagird lövhədə.
Bir fərəh götürdü tez şagirdləri,
Sevincdən parlayan gözlər alışdı.
Kim bilir, kim bilir nə vaxtdan bəri
Bu sözlər lövhəyə yazılmamışdı...
Hamı bir ağızdan edincə təkrar,
Sözlə qanadlanıb dağları aşdı.
Dolandı, bir yerdə tutmadı qərar –
Azəri yurdunu gəzdi, dolaşdı.
Sonra havalandı, gəldi cövlana,
İran torpağını, gəzdi sərbəsər...
Elə ki, yetişdi bu səs Tehrana,
Titrədi yerbəyer məclisdəkilər.
Çox yazdı, çox pozdu hökmdar; ancaq
Hökmü dövran verdi, zəmanə yazdı..
Öz doğma dilində məktəbli uşaq
Bir "vətən" söylədi, bir "ana" yazdı.
Təkcə körpələrin deyil ki, inan,
Bu dərs lap şahın da yadında qaldı...
Kim qıfıl asmışdı xalqın dilindən,
O da öz dərsini bu gündən aldı.

Bakı, dekabr, 1945

DÜNYANIN

(Təbrizli deyirdi)

Kimə deyək – az almayır, çox alır,
Xəbər alma – nə aparır, nə alır
Ömr etdikcə azalmayır, çoxalır,
Gündən-günə dərd-azarı dünyanın.

Kim yazıbsa, pərişanlıq yazıbdır –
Bir aydınlıq, bir qaranlıq yazıbdır,
Öz ömrünə nigaranlıq yazıbdır,
Əksik olmur intizarı dünyanın.

Tarixin öz hökmü, öz qanunu var,
Çox çəkməz, şah ağlar, şahpərəst ağlar.
Eşidir... danışır... nəyin ki sağlar
Nə var lalı, koru, karı dünyanın.

Yadlar gəlib ölkəmizə soxulur,
Bağbanlar qırılır, bağçalar solur.
Hərçəndi ki, vəfasızlar çox olur,
Kəsilməyir etibarı dünyanın.

Şah oğlunun özü nədir, sözü nə?
Kimdir baxan indi onun sözünə?
Qoyan olsa kifayətdir özünə,
Halal malı, halal varı dünyanın.

1976

DƏVƏ KARVANI

Qaranlıq çəkilir, açılır səhər,
Yumur yavaş-yavaş gözünü ülkər.
Qızıl üfüqlərdə dərin məna var,
Qızarır mis kimi göydə buludlar.
Söküldükcə səhər, ağardıqca dan,
Ayılmaq istəyir şəhər yuxudan.

Gəlir qulağıma, bayaqdan bəri,
Həzin-həzin ötən qumrov səsləri.
Xəyalıma əski bir cahan gəlir,
Tozlana-tozlana bir karvan gəlir.

Göylərə yüksəlir yerin dumanı,
Bu yollar çox görüb qoca sarbanı.
Lakin o büsbütün düşübdür haldan,
Yollar yorulmayır, yorulur insan...
Səhərdən ac qalıb, bəlkə, axşama,
Bəlkə, yola düşüb Bağdaddan Şama...
Min bir əzab çəkib isti günləri,
Su deyib alışır, yanır ciyəri.
Bəlkə, uzaqlara düşübmüş yönü,
Ac-susuz körpələr gözləyir onu.

Bəlkə xara, qumaş, ipəkdir yükü,
Bəlkə anaşadır, tiryəkdir yükü.
Bəlkə sirdaşıdır ahlar, haraylar,
Bəlkə daşıdığı bu ağır taylar
Özünün deyildir, özgələrindir.
Onu dindirməyin, dərdi dərindir...

Artıq, yorulmuşdur bütün dəvələr,
Bükür dizlərini yavaşca boz nor...
Bunu yaxşı bilir, hər kim halıdır,
Karvan – əski Şərqin bir timsalıdır.

Qatarlar qışqırıb keçməsə, inan,
Yüz min qafilə də çəkilsə burdan,
Şəhər məst olacaq bu tozda, ancaq
Yatanlar yuxudan ayılmayacaq.
Lakin həyatın da öz qanunu var,
Ayılır yuxudan ayaqlananlar!!!

Mənim istəyimi, əziz dost düşün,
Sən yoqin inan ki, şərəfli bir gün
Sarbanlar güləcək, sevinəcəkdir –
Karvandan qatara tez minəcəkdir.

Qızıl üfüqlərdə dərin məna var,
Qızarır mis kimi göydə buludlar.
Söküldükcə səhər, ağardıqca dan,
Ayılmaq istəyir şəhər yuxudan...

Təbriz, oktyabr, 1941

TƏBRİZ GÖZƏLİ

Səhər xiyabanla keçdiyin zaman,
O qara örpəkdən – qara buluddan
Gözlərin parladı bir ülkər kimi,
Elə bil, camalın aypara çıxdı.
Uzun kirpiklərin nizələr kimi,
Yarıb örpəyini kənara çıxdı...
Könüllər yaşarmı arzu-əməlsiz?
Heç ola bilməzdi Təbriz gözəlsiz.
Şərimin zərini geyib bəzənsən –
Dumanlı Təbrizin gözəli sənsən.
İncədir, zərifdir əlin, ayağın,
Ənlik, kirşan bilmir əsla yanağın.
Heç sürmə çəkmədin yay qaşlarına,
Boyalar vurmadın gur saçlarına.
Qara günlərini bəzən unutdun,
Dünyada hər şeydən şərəfli tutdun.
Sən öz namusunu, sən öz arını,
Qana batırmadın dırnaqlarını.
Oldunsa mübtəla min ağır dərdə,
Əyləncə olmadın xain əllərdə.
Həyat, kaman kimi, bükdüsə səni,
Pullara satmadın öz bədənini...
Çoxları can atdı, keçmədin elə,
Sən bir karxanada oldun əmələ.
Ömrünü, gününü vurdu boranlar.
Narın əllərində yarandı qabar.
Gecəli-gündüzlü çalışdıqca sən,
Yüzlərcə xalılar çıxdı əlindən.

Həmişə can verir xəyal insana,
Yapışır qolundan, düşsən tufana,
Qurtuluş ümidi, həqiqət eşqi.
Səni də yaşatdı bir sənət eşqi!
Hər dağdan bir çiçək, hər bağdan bir gül
Qoparıb söylədin: – qarşımda düzül!
Qəlbinlə, eşqinlə, qüdrətinlə sən,
Hər rəngə min rəng də qatdın yenidən.
Arğacı keçdikcə şümşad biləklər,
Açıldı xalında güllər, çiçəklər.
Həvəslə, maraqla çalışdın uzun,
Yeləni qıvrımlı xalı toxudun.
Onun bir ucuna çatmazdın, inan,
At minib üstündə cıdır oynasan.
Yaratdın: meşələr, dağlar, dərələr,
Al-yaşıl yamaclar, göy mənzərələr,
Çiçəkli bağçalar, meyvəli bağlar,
Yanları yarpızlı qaynar bulaqlar,
Qərənfil, yasəmən, nərgiz, nilufər,
Marallı yamaclar, ceyranlı düzlər...
Bir yanda Şamaxı, bir yanda Əhər,
Bir yanda Urmiya, bir yanda Xəzər,
Bir yanda Qaradağ meşəlikləri,
Bir yanda Qarabağ gözəllikləri...
Bu zəngin torpaqda nə var sənindir,
Hər yanı öz yurdun, öz vətənindir...
Çırpınan qəlbinlə, saf əməlinlə,
Sənin qüdrətinlə, sənin əlinlə,
Göylərin günəşi yerlərə yendi;
Gözəl lövhələrlə xalın bəzəndi.
Yayıldı dünyaya onun sorağı,
Oldu könüllərin ilham bulağı.
Lakin alın tərin, könül əsərin,
Oldu satış malı alverçilərin.
Kimin ixtiyarı, kimin pulu var,
Tökülüb hər yandan gəldi ağalar.
Göründü qüdrətin, sənətkarlığın,

Lakin bilinmədi sənin varlığın.
Başqa palazlara qatıldı xalın,
Bir pullu tacirə satıldı xalın.
Getdi işin bada, əməyin bada –
Tapdandı Berlinin salonlarında...
Qələmdən, kağızdan kömək istədim,
Mən sənin şəklini çəkmək istədim.
Dedim ki, örpəyi alım başından –
Günəşin üzündən çəkilsin duman.
Şəkilin solmasın min il dursa da,
Ləkələr qalmasın boyalarımda.
Heyif, gözlərimdə qaraldı cahan,
Mən baxa bilmədim sənə heç bir an,
Göründü büsbütün ətin – ondamın,
Daş deyil yanmaya qəlbi insanın,
Yox! Çəkə bilmədim bu lövhəni mən,
Fırçam parçalandı, düşdü əlimdən...

Sənin nə zinətin, nə bəzəyin var,
Ancaq güldən təmiz bir ürəyin var.
Bax, budur şairi məftun eyləyən,
Sadə gözəlliyin vurğunuyam mən.
Demədim gözəllik işvədir, nazdır,
Ana qadınlığa gözəllik azdır,
Haqqını istəyən qəhrəmanlar tək
Bir də hünər gərək, cəsarət gərək!..
Səni əsir görüb, dəyişir halım,
Yenə uzaqlara qaçır xəyalım...
Sənin ismətin var, sənin arın var,
Tarixdə ad qoymuş anaların var:
Keyxosrov əlləşdi daim fələklə,
Nə aman eşitdi, nə ah dinlədi;
Min bir xəyanətlə, min bir kələklə,
Bizim yurdumuza basqın elədi.
Lakin, el çökmədi qarşısında diz,
Çıxdı cəbhələrə qəhrəman kimi,
Vuruşdu qeyrətlə cəsur xalqımız,
Əyilmək bilmədi Savalan kimi.

Topladı gücünü, bütün hər nə var,
Ellər sərkərdəsi qadın hökmüdar –
Tomiris hiddətlə çatdı qaşını,
Vurdu qılıncıyla Keyin başını.
Böyük paytaxt oldu Bərdə bir zaman.
Töküldü düşmənlər hərə bir yandan,
Qarğa-quzğun kimi onun üstünə.
Bərdə əyilmədi, sınmədi yenə.
İgidlər qorudu doğma vətəni;
Cəbhələr, səngərlər oldu məsgəni,
Bizim hər gəlinin, bizim hər qızın.
Adı var tarixdə analarımızın:
Nənən Nuşabəni yadına sal bir,
Ona baş əndirdi İskəndər Kəbir.
Məhsəti xanımı unutma barı.
Yığdı dövrəsinə sənətkarları,
Qaranlıq zülmətdə bir işıq oldu
Sənət məclisinə yaraşıq oldu.
Coşdu ilham seli, döndü ümmana,
Şöhrəti yayıldı cümlə cahana.
Şerilə bəzədi bu ana yurdu,
Böyük Nizamiylə yanaşdı durdu.
Çox olub ölkəmin qəhrəman qızı,
Ölməz ad qazandı bir vaxt Xan qızı –
Qarabağ günəşi şair Natəvan;
Bu gün də çıxmamış elin yadından.
Böyük məclis qurdu, divan elədi.
Ağlıyla dünyanı heyran eylədi.
Ona hörmət etdi hər bir sənətkar,
Bildi qiymətini arif olanlar.
Əmr etdi, düzlərə sular çəkildi,
Yamaclar şumlandı, çöllər əkildi.
Əsiri olmadı aqcanın, pulun,
Oldu himayəsi acın, yoxsulun.
Parladı şəhərin başlarında tac,
Boğdu yoxsulları aclıq, ehtiyac...
Bunun şahididir həmin bu yerlər.
Görənlər, bilənlər belə deyirlər:

Bir gün igid ana, qəhrəman ana –
Zeynəb qadınları yığdı başına.
Təbrizin üstündə tufan elədi,
Zülmə, əsarətə üsyan elədi.
İnsanlar selinə büründü hər yan;
Həmin bu tufandan, bu qasırğadan
Əyanlar, ərbablar qorxudan qaçdı.
Zeynəb anbarların ağzını açdı,
Tökdü küçələrə orda hər nə var,
Götürdü payını yoxsullar, aclar.

Obanın, oymağın getdi tutarı,
Talandı elləri çar kazakları.
Onlarla qoç kimi Nəbi vuruşdu,
Aynalı parladı, boz köhlən uçdu.
Qılınc bağlamaqda, tüfəng atmaqda,
Döyüş meydanında at oynatmaqda –
Bu bir həqiqətdir, deməsəm də mən, –
Heç dala qalmazdı Həcər Nəbidən.

Qırdı zəncirləri polad biləklər,
Yetişdi kamana şirin diləklər.
Ana qadınlığın başı ucaldı,
Bizim ölkəmizdə haqqını aldı.
Bir gün basqın etdi yağılar bizə,
Dağ-dağa toxundu, dəniz-dənizə.
Ordumuz öz döyüş təblini vurdu,
Sovetlər torpağı ayağa durdu,
Axdı qoşun kimi cəbhələrə el...
Başında boz papaq, əynində şinel,
Əlində beşatan, belində qatar,
Sənin doğma bacın – qəhrəman Bahar
Çıxdı cəbhələrə boranda, qarda,
İğidlik göstərdi vuruşmalarda...
Gy gözəl, qəlbimi duydunmu barı,
Boş yerə çəkmədim bu misalları...
Qəlbinlə bir vurur elin ürəyi,

Ancaq sən bürünüb, qara örpəyi
Bəzən axşam üstü, bəzən də erkən
Ürkək maral kimi oğrun gəzirsən...
Diləklər könüldə dustaq olarmı?
Söylə, gözlərinin günahı varmı?
Onlar dünyanı zindan eylədin,
Özün də bilmədin, min qan eylədin...
Ya qoy camalını görünsün bütün,
Ya qara torpaqla əbədi örtün!
Xeyir, mən yanıldım, onu bil ki, sən,
Pərdələr altında ölməyəcəksən!..

Sən, ey Təbriz qızı, Təbriz gözəli,
"Dəyişir iqlimi insanın əli..."
Şirin arzularım deyildir uzaq,
Dağların başından bir gün doğacaq,
Qırmızı şəfəqlər düşəcək birdən,
Sizin qapınızdan, pəncərənizdən.
Həmin o şanlı gün, o şərəfli gün
Salon adamlarla dolacaq bütün.
Alışıb yanacaq qızıl bayraqlar,
Danışıb güləcək əziz qonaqlar.
Səni seyr edəcək minlərcə gözlər,
Qəlbimdə bir əməl, alnında zəfər,
Səsini dünyalar eşitsin deyə –
Şir kimi atılıb qızıl kürsüyə,
Böyük bir həvəslə, bir vüqarla sən,
Mənim bu şerimi söyləyəcəksən!
Paslı zəncirlərdən açılmış əllər,
Zindandan, qəfəsdən azad gözəllər,
Əmələ yoldaşın, dostun, sirdaşın,
El oğlun, el qızın, bacın, qardaşın
Sənə gül verəcək, əl çalacaqlar...
Qarşında zalımlar alçalacaqlar.
Ey Təbriz gözəli, onda an məni,
Ancaq öz yanında taparsan məni...

Təbriz, fevral, 1942

PANAMALI DİLƏNÇİ

Günəş üfüqlərdən çəkilir tamam,
Quşlar yuvasına dönür hər axşam.
Hər kiçik canlının bir məskəni var,
Hər kəsin öz yurdu, öz vətəni var.
Ayaz göyə çəkir yerdən insanı,
Sənin yurdun hanı, məskənin hanı?
Ağalar, xanımlar əyləncələrlə,
Zəngin saraylarda qəhqəhələrlə,
Çalıb çağıracaq, deyib güləcək...
Sən də bu palçıqlı küçələrdə tək,
Donunca kədərli gözlərində yaş,
Yalvara-yalvara çöldə gəz, dolaş...
Batıq gözlərin ac, çılpaq qarnın ac,
Səni küçələrə atdı ehtiyac;
Oldun gündən qara, ömürdən qara,
Yalın ayaqların kömürdən qara...
Ciyərin həsrətlə alışdı yandı,
Ötüb keçənlərə əlin uzandı.
Sən etdikcə fəryad, etdikcə aman,
Ağalar vüqarla keçdi yanından.
Fəryadın toxundu daşa, divara,
Lakin yetişmədi kar qulaqlara.
Boğdu fəryad səni, boğdu ah səni,
Yaman günə qoydu Rza şah səni...
Sönən gözlərində qaraldı cahan,
Məhəl qoymadılar axan yaşına,
Sən çörək istədin hökümdarından,
O, panama qoydu sənin başına...
Bu qoca dünyaya köçüb gələrkən,
Anadan dilənçi doğulmadın sən.
Başında min boran, min tufan oldu,
Acı səfaləti yaradan oldu.
Sənin yurdun da var, vətənin də var.
Dünyada nə desən vətənində var.
Burda kef çəkənlər az deyil, yəqin,

Öz ana yurdunda sən ki, gülmədin...
Bir yamaqlı şalvar, bir cırıq əba,
Başında panama, yanında torba,
Doğrudan, qəribə bir görkəmin var...
Səni bu halətə salan de, kimdir?
"Mədəniyyət" deyə, sizə ağalar
Bir torba bəxş etdi, bir də silindir.
Mən sənə tək dedim, söylə təkmisən?
Dərdini bir mənə deyəcəkmisən?
Yoxsa ki, yeyəcək qəlbini qəmlər,
Acılar, ağrılar, dərdlər, ələmlər.
Bilirəm nağıllar az deyil səndə,
Onu söyləsən də, söyləməsən də...
Qoy gəlsin yanıma yurdsuz qalanlar,
Onlar sığınmağa sinəmdə yer var...
Yetər, sən nə "ərbab", nə "ağa" söylə,
Söyləsən dərdini torpağa söylə!
Ayılar bu torpaq, keçdikcə günlər,
Yerin qulağı var, o səni dinlər...

Təbriz, oktyabr, 1941

AŞIĞIN AYRILIQ MAHNISI

Bürüdü əlləri yenə dərd, ələm,
Aşığın kədəri başından aşdı.
Dedi – Bu yerlərdə qala bilmərəm.
Vəfalı sazını götürüdü qaçdı...

Qaldı yadigarı öz sirdaşında...
Yandırdı simləri qəlbinin odu.
Uca bir qayanın durub başında,
Sədəfli sazını çaldı, oxudu:

"Ay əllər, qəlbimi sökdü dağ-düyün,
Dəmir pəncərədən boylanan hər gün –
Ağırdır bir məhbus tarizən üçün,
Mizrab ayrılığı, tar ayrılığı.

Duyar kədərimi, düşünsə hər kim,
Mənim dağlar qədər böyükdür dərdim.
Zülmə, işgəncəyə yenə dözərdim,
Hər şeydən ağırdır yar ayrılığı..."

Ey aşıq, duyuram dərdini sənin,
Alovlar içində yanır vətənin.
Lakin dilələri sarsıtmaq olmaz,
Nə qədər bir ucdan düşsə qırhaqır...

Bu gün döşündəki o sədəfli saz,
Sabah da əlində əyri qılıncdır.
İgidlər silahla göstərdi hünər,
Oxu! Səs verəcək səsinə ellər.

Aşıq dostum, inan xalqın gücünə,
Bu gün boz dağlara çəkilsən də sən -
Onun qüdrətiylə, əliylə yenə
Sabah öz yurduna tez dönəcəksən!

Təbriz, aprel, 1942

NƏ HAYDADIR?

(Təbrizli deyirdi)

Dolaşıram Arazın
Ot basmış sahilində.
Onun dərdli günündə,
Onun ağır ilində.

Qulağıma uzaqdan
Gələn qumbara səsi,
dərdə salıbdır məni.
Səbəbkara min lənət!
Niyə topa tutulsun
Bir millətin vətəni?

Arzulara nə çatar
Arzular qanadlıdır.
Təbrizdəyəm xəyalən
Gözəl güllü-çiçəkli,
xiyabanında onun
Şeirlər deyirəm mən.
Kaş ki, görə biləydim
Gedib səni, ey vətən!..

Özüm burda olsam da
Ürəyim o taydadır.
Görün mən nə haydayam,
Bu dünya nə haydadır?

1980

YETİRMƏMİŞƏM

Bəxtəvər başına bulud, ay bulud!
Qorxusuz-hürküsüz səmalarda sən,
Gah şərqə, gah qərbə çıxıb gedirsən...
Gah qərbə, gah şərqə çıxıb gedirsən...

Xoşbəxtdir göylərə yüksələ bilən...
Gözlədim hörməti, ləyaqəti mən.
Ömrümdə ya qəsdən, ya da ki, səhvən,
Bir kəsin haqqını itirməmişəm.

Deyərdim bir sözü hər səhər, axşam,
Gərək dağlar aşam, zirvələr aşam.
Neçə yazım qalıb hələ natamam –
Yüzlərcə şerimi bitirməmişəm.

Gözlədiyim o gün gələcək hökmən,
Necə köçüm gedim, deyin indidən?
Bu azad yurdumun təbrikini mən,
Cənublu dostlara yetirməmişəm...

1978

Aşıq dostuma

AŞIQ DOSTUMA

Dinlə məni, bir sözüm var, a dostum,
Anlayana bir mahalsan sazınla;
Bəzən Koroğlusan, bəzən Kərəmsən,
Bəzən də Rüstəmsən-Zalsan sazınla.

Bəzəkli toylara yolun düşəndə,
Uyub hər baxışa, düşmə kəməndə.
Kəndin qız-gəlini səndən küsəndə,
Yalvarıb könlünü alsan sazınla.

Çox çağırdın, yetər, ayı, ülkəri,
Bilinmədi aşıqların hünəri.
Bizə dağlar çəkmiş keçən günləri,
Dastanlarda yada salsan sazınla.

Boy atan ölkəmin bu şirin çağı,
Böyük aşıqların gəlsin sorağı.
Bu əziz günlərdə bayramqabağı
Ellərin könlünü çalsan sazınla.

Mənə gülməz sazı, sözü duyanlar -
Aşıq, bu yerlərə cləsən güzar -
Osman deyər - gözüm üstə yerin var,
Haçan gəlib qonaq qalsan sazınla.

1938

BAŞINA DÖNDÜYÜM

(Deyişmə)

Aşıq Mirzə

Başına döndüyüm, gülüzlü mələk,
Maraltək qarşımdan qaçma hürkərək.
Ver qolunu, qoy dolanaq, qoy gəzək,
Gəl eyləmə naz, başına döndüyüm!

Aşıq Əsəd

Qoca demə, yalvarıram, amandı,
Qocalıqda sevmək daha yamandı.
Aşıq könlüm hər fəsildə cavandı
Qış başına, yaz başına döndüyüm!

SÖYLƏ

Dərdim çoxdur, dərdin alım, ay aşıq
Al sazı, bu dərdi hər yana söylə.
Əqildən kəm olan duymaz, anlamaz
Mənim sözlərimi qanana söylə.

Adamı oynatmaq insanlıq deyil,
Eşqi hiss etməmək cavanlıq deyil,
Mənim şikayətim divanlıq deyil,
Nə sultana söylə, nə xana söylə.

Həmişə əlində saxla cilovu,
Yalnız ovçu bilər oylağı, ovu.
Kim oda düşməyib duymaz alovu,
Məhəbbət oduna yanana söylə.

Haqq olur... mən hara, biilqar hara.
Düşmüşəm nə edim, yoxdur bir çara.
İşdir yolun düşdü qarlı dağlara
Haray çək, ahımı dumana söylə.

Tapılmaz eləsi bizim zamanda
O təkdir, heç misli yoxdur cahanda.
Bəlkə bir gün gördün toyda, nişanda
Unutma, ərzimi canana söylə.

El ağzı fal olar, bunu sal yada.
Sirri dosta vermə, söyləmə yada,
Xeyir xəbər olsa eldə, obada
Qayıdıb gələndə Osmana söylə.

DE GƏLSİN

Aşıq, bu gün yaxşı köklə sazını,
Ürək açan mahnılardan, de gəlsin!
Şirin dostluq nəğməsidir hər sözün,
Sədaqətdən, etibardan, de gəlsin!
Bivəfanın heç danışma sözünü,
Düz peymandan, düz ilqardan, de gəlsin!
Sədaqətdən, etibardan, de gəlsin!

"El havası"[1] qulağımdan getməyir –
(Əzəl başdan bəxtimə el düşübdür).
Qara telli bizim yerdə az deyil,
Ürəyimə bir "Sarıtel" düşübdür,

Öz evindir, üç gün, beş gün, qal, oxu!
Baş pərdədə "Baş sarıtel" çal oxu!
Üstündən də bir "Başxanım" de gəlsin!
Oda düşdü, yandı canım, de gəlsin!

"Cəngi" yatmaz hər pərdəyə, hər simə,
"Misri" üstə oxuyanda zilə çək.
Beçə pərdə min dil açıb ötəndə,
Arif olan mətləbini biləcək...

[1] "El havası", "Sarıtel", "Başsarıtel", "Başxanım", "Cəngi", "Misri", "Şərili", "İrəvan çuxuru", "Müxəmməs", "Göyçə gülü", "Gilənar", "Qəhrəmanı" saz havalarının adlarıdır.

Təzanəni elə vur ki, titrəsin,
Lərzə düşsün gümüş telə, de gəlsin!
Koroğlutək bir nərə çək ucadan,
Səsin çatsın Çənlibelə, de gəlsin!

Bu, ariflər məclisidir, ay aşıq!
Əvvəl ustad, sonra ustadnamə de,
Dilqəm niyə qərq olmuşdu qəmlərə?
Nakam niyə çatmamışdı kamə, de?
Kərəm niyə oda düşüb yanarkən –
Əsli kimi vəfadarım var, – dedi?
Qərib niyə qürbət eli dolandı?
Valeh kimə valeh oldu, yar dedi?

Dostum, bu gün bir də yoxla döşünü.
Hər sualın öz cavabı gərəkdir!
İmtahandan çıxmaq üçün aşığın,
Sinəsində min kitabı gərəkdir!
Boşa çıxmaz barəsində atılan,
Yüz ilməkli söz kəməndi, de gəlsin!
Hər cinasın qıfılbəndi, de gəlsin!
Nağaraçı aşıqların dişləri,
Deyən, burda kilidləndi, de gəlsin!

Heç unutma Gürcüstandan gələn var,
Saz qədrini, söz qədrini bilən var –
Bu məclisdə əyləşibdir görürsən
Neçə ustad, neçə mahir sənətkar;
Usta tərpən, ustadların yanında –
Bir mənalı ustadnamə, de gəlsin!
Kimlər öldü, nakam getdi dünyadan,
Kimlər sevdi, yetdi kamə, de gəlsin?!

Hər nəğmənin öz havası gərəkdir
Yeni mahnı, yeni avaz istəyir.
Yeni nəfəs, yeni barmaq, yeni xal
İndi səndən bir yeni saz istəyir.

Dodaqdoymez çox eşidib, dostların -
Diltərpənməz, dişlərtoxunmaz istəyir;
"Müxəmməsin" öz yeri var bilirsən,
Ələsgərdən birçə qoşma, de gəlsin!
Yaxşı cinas cığasız da gözəldir,
Hər "Təcnisə" cığa qoşma, de gəlsin!
Ələsgərdən birço qoşma, de gəlsin!

Aşıq, bu gün simlərini təzələ,
Tavar sazı yaxşı köklə, yaxşı çal,
Belə fürsət bir də keçməz heç ələ.
Söz kürzünü mütrüblərə yaxşı çal!
Tavar sazı yaxşı köklə, yaxşı çal!
Ustadlardan sənət dərsi almayan,
Toy yerində yarım saat qalmayan.
Hər məclisdə beş mindən az almayan –
Yazıq sazı atıb-tutan, çalmayan
Mütrüblərə söz kürzünü yaxşı çal,
Tavar sazı yaxşı köklə, yaxşı çal!

Hanı aşıq libasında toyları
Dəf daraqlı, təmtəraqlı gəzənlər?
Hər yanına iki qaval, iki dəf,
Beş nağara, on beş dümbək düzənlər?
"Bəxtəvəri" havasına xanımtək,
Yırğalana-yırğalana süzənlər?
Bu saz, bu söz, bu da məclis, buyursun!
Daha yoxdur bir bəhanə, de gəlsin!

Hər torpağın, hər iqlimin özünün,
Ürək açan xoş səfası şirindir.
Bu dünyada min bir nəğmə olsa da
Hər zamanın öz havası şirindir.
Sən bu dövrün aşiqisən, ay aşıq!
Bir dövrə vur bu dövranın eşqinə:
Odun, biçən, dəmir, polad əridən
Adlı-sanlı qəhrəmanın eşqinə;

Dağ döşündə ağ sürünün içində,
Şümşad çalan xan çobanın eşqinə.

Maral kimi inək, buzov bəsləyən,
Ala gözlü bir ceyranın eşqinə –
Qəhrəmanlıq dastanından iki bənd,
"Qəhrəmanı" havasına de gəlsin!
Aşıq, yetər, daha bir söz qatmayaq
Bu söhbətin arasına, de gəlsin!
"Qəhrəmanı" havasına, de gəlsin!..

Bakı, 1960

O KİMDİR BAŞIMDA ÇALIR, ÇAĞIRIR

Yanıqlı bir hava gəzir başımda,
Onun könül odu heç azalmayır.
Qürbətdə, hicranda, vüsal dəmində,
O məndən bir an da ayrı qalmayır.

Bəzən uzaqlara düşür güzarım,
Gəzirəm dünyanı, gəzir mənimlə.
Ümman xəyalımın ağ yelkənində
Üzürəm sularda, üzür mənimlə...

Çıxdım zirvəsinə göy Qoşqarın da,
Uca Ləlvərin də, Alagözün də;
Qar quzey yerlərə yatır, bilirəm,
Yeri var dağlarda şirin sözün də...
Dolandım başına Ocaq dağının,
Dolandı mənimlə o mahnılar da.
Qoşmalar dilimdə elə yandı ki,
Ayağım altında əridi qar da.

Qəlbimdə nəğmələr yuva salıbdır,
Niyə munis olub mənə mahnılar?
Sonra anladım ki, səbəbsiz deyil,
Bir azca mənim də aşıqlığım var.

Əlimdə cilovu dəli köhlənin,
Mahnı deyə-deyə endim Kəpəzdən.
Havanı dəyişmək istədim, lakin
Ayrıla bilmədim yenə o səsdən...

O kimdir başımda çalır-çağırır –
Gözəl havaları qulağımdadır?
Elə bu saat da, elə bu an da
Mahnısı dilimdə, dodağımdadır?

Sadəcə görünən həmən o sözlər
Dərin dənizlərdən daha dərindir!
O şirin mahnılar ustad aşığın,
Mahir sənətkarın-Ələsgərindir...

1963

ƏMRAHIN SAZI

Səsin yaxşı gəlir, heç sıxılma sən.
Hərdən zilə çək, ay aşıq Məsim!
Ustad yanındadır, ehtiyat etmə,
Səni ondan yaxşı bilən kimdir, kim,
Hərdən bir zilə çək, ay aşıq Məsim!

Sən bir "Kərəmi" çal, uzağa getmə.
Ustad yanındadır, ehtiyat etmə.
Həmahəng olanda ayrı dad verir
Səsin məlahəti, sazın avazı.
Hər nə çatışmasa, natamam qalsa,
Onu tamamlayır Əmrahın sazı.

1976

DAĞLAR

Mən bir zaman sizdən ayrı,
Düşdüm ay dağlar, ay dağlar!
Necə oldu başınızdan
Keçdim, ay dağlar, ay dağlar!

Çox gəzmişik qarda, buzda,
Haqqınız var boynumuzda,
Gözlərimi qoynunuzda
Açdım, ay dağlar, ay dağlar!

İtirən haqqı-sayını,
Almadı sizdən payını,
Min yerdə Şəmkir çayını
Keçdim, ay dağlar, ay dağlar!

Ürəyim dönməyir sizdən,
Bu yerlərə üz qoyub mən,
At belində belinizdən
Aşdım, ay dağlar, ay dağlar!

Gəlib çatdım uzaqlardan,
Çıxdı könül intizardan,
Suyu sərin bulaqlardan
İçdim, ay dağlar, ay dağlar!

Sağım təpə, solum dərə,
Çiçəklərdən dərə-dərə,
Qanad çaldım Süsənbərə
Uçdum, ay dağlar, ay dağlar!

Güllər bitir boz aranda,
Səngər dağı bozaranda,
Üz-gözünüz bozaranda
Qaçdım, ay dağlar, ay dağlar!

Keçir dövran, keçir zaman,
Qoyun qalsın bir nişanam,
Bəlkə bir gün bu dünyadan
Köçdüm, ay dağlar, ay dağlar!..

Şəmkir, oktyabr, 1950

DAĞLAR MAHNISI

Gərək

Quzovda ağaran qayamı, qarmı?
Yaşıl yaylaqların heç tayı varmı?
Üç günlə, beş günlə doymaq olarmı?
Dağlardan doymağa yüz illər gərək!

İndi səməndimin ağarıb yalı,
Yeyilib dırnağı, tökülüb nalı...
Dağlara çıxmağa qalmayıb halı,
Gələydim buraya əzəllər gərək!

Yaylağa köçəndə yayda bizim el,
Yolu uçurmasın nə yağış, nə sel –
Dağların altından vurulsun tunel,
Qovuşsun çox uzaq mənzillər gərək!

Yolsuz-izsiz dağa binələr gəlməz,
Getsə, o yerlərə qonaq dincəlməz.
Əllər əyri olsa, yollar düzəlməz,
Düz yollar çəkməyə düz əllər gərək!

Günümüz xoş olsun, ömrümüz uzun,
Çataq körpüsünü ayın, ulduzun!
Şirin xəyal deyil, həqiqət olsun
Müqəddəs arzular, əməllər gərək!

DEDİM

Dolama yollarla çıxanda atım,
Könlüm tək açıldı qolum-qanadım,
Tutanda meşəni şirin bayatım,
Sosimə səs versin bülbüllər, dedim.

Donu gül-çiçəkdir dağın, dərənin,
Şairi bülbüldür bu mənzərənin.
Gözəllər məskəni Gözəl dərənin,
Şəninə şeirlər, qəzəllər, dedim.

Çiçəkli döşündə yaşıl bir dağın,
Ləzzəti ayrıdır çadır qurmağın.
Yazları üstünə Dürrü bulağın,
Gəlsin bölük-bölük gözəllər, dedim.

Təbiət! Zəngindir -- rəngin, naxışın;
Həm yazın gözəldir sənin, həm qışın.
Düzülsün əlilə dostun, tanışın,
Məzarın üstünə o güllər, dedim.

Bir gün Çənbərəkdən çıxdım səhərdən,
Keçdim at belində Basarkeçərdən.
"Dağlar mahnısı"nı oxusun hərdən,
Bizim obalar, bu ellər! - dedim.

Dinlədim çayların zümzüməsini,
Onların səsinə qatdım səsimi,
Dağların döşündə qalan izimi,
Tapacaq bir zaman nəsillər, dedim.

Çənbərək-Qazax, 1964

DOSTUNUZ GƏLİR

Buludlara bürünməsin başınız,
Bilin, dağlar, bilin, dostunuz gəlir!
Məni görüb çatılmasın qaşınız,
Gülün, dağlar, gülün, dostunuz gəlir!

Görüşmədik bizlər xeyli zamandı,
Hər bir dərddən hicran dərdi yamandı.
Yollarınız bağlanmasın amandı,
Bilin, dağlar, bilin, dostunuz gəlir!
Gülün, dağlar, gülün, dostunuz gəlir!

Başımızdan sıx buludlar çəkilsin,
Boz sürülər qar üstündən çəkilsin,
Qara naxır yurd yerinə tökülsün,
Bilin, dağlar, bilin, dostunuz gəlir!
Gülün, dağlar, gülün, dostunuz gəlir!

Bir zaman bu yaylaqlara köçmüşəm,
Quzqulaqlı quzeyləri biçmişəm.
Suyu sərin bulaqlardan içmişəm.
Bilin, dağlar, bilin, dostunuz gəlir!
Gülün, dağlar, gülün, dostunuz gəlir!

Bu yerlərdir dost könüllər oylağı,
Oyuqlunun, Muncuqlunun bulağı.
Boz Dəvədaş, göy Divəkli yaylağı,
Bilin, dağlar, bilin, dostunuz gəlir!
Gülün, dağlar, gülün, dostunuz gəlir!

Ocaq dağı dinmə desən, dinmərəm,
Ancaq bil ki, mən alışsam, sönmərəm!
Dost-tanışla görüşməmiş dönmərəm.
Bilin, dağlar, bilin, dostunuz gəlir!
Gülün, dağlar, gülün, dostunuz gəlir!

1961

OLARMI?

Ey mələk, qınama bir sualım var, –
Qəribəm, yanında qalım, olarmı?
Sədəfli sazımı basıb bağrıma
Qaşların eşqinə çalım, olarmı?

Mən canandan, canan məndən ayrılıb,
Ruh yaşarmı de, bədəndən ayrılıb?
Gecənin bu çağı səndən ayrılıb,
Çöllərə düşməyə halım olarmı?

Ay niyə tutulur, söylə, ey nigar, –
Səni hicran boğur, yoxsa intizar,
Bəlkə ürəyində bir dərdin də var,
Mən sənin dərdini alım, olarmı?

1943

DƏRDİN ALIM

Çiçəklərdən soni könlüm
Dilər keçər, dərdin alım!
Xəyalın tez-tez yanımdan
Gülər keçər, dərdin alım!

Dağ başını aldı duman,
Körpə quzu anasından
Azıb ayrı düşən zaman
Mələr keçər, dərdin alım!

Demə: dünya bir qəfəsdi,
Mahnıların quru səsdi...
Eşq, sevda bir həvəsdi,
Gələr keçər, dərdin alım!

Bahar çağı, səhər erkən
Göy çəməndə gəzəndə sən,
Bilirsənmi ürəyimdən
Nələr keçər, dərdin alım?!

1943

GÖZÜNÜN YAŞINA QURBAN

Çeşmin kəşiyində səf-səf dayanmış,
Əlləri nizəli qoşuna qurban!
Mənim şikayətim gözlərindədir,
Kirpiyinə qurban, qaşına qurban!

Söylə, görməyəli üzün üzümü,
Eşqin, məhəbbətin odu söndümü?
Çırpınan ürəyin daşa döndümü?
Qoy dönsün, qəlbinin daşına qurban!

Sən qədəm basanda eşqin bağına,
Sarılıq çökməsin al yanağına.
Görürəm, şeh düşüb gül yarpağına,
Ağlama, gözünün yaşına qurban!..

1943

QARA GEYİNMƏ

Gözəlim, durdunmu gül yatağından,
Könlümü zülfündə ara, geyinmə!
Qoy hələ başına dönüm, dolanım,
İpək saçlarını dara, geyinmə!..

Zülfün qamətindən uzundur, uzun,
Yalansa, əmr eylə boynum vurulsun!
Ayna qabağında bir ayna dursun,
Görünsün əndamın yara, geyinmə!

Qəlbimi, könlümü, sənə vermişəm,
Hər zaman başına dönməkdir peşəm.
Mən hələ bağçandan güllər dərmişəm,
Əlim yetişməmiş nara, geyinmə!

Sənə şal yaraşır, ipək yaraşır,
Görəndə sevincim başımdan aşır,
Bəyaz qumaşlardan gözüm qamaşır,
Ara geyinsən də, ara geyinmə!

Bu könül sözümdür, dedim ürəkdən,
Bil ki, xoşum gəlməz bəzək-düzəkdən!
Geysən də al, yaşıl, abı ipəkdən,
Üstü qara güllü xara, geyinmə!

Ey mələk, üzümə gülmə üzərdə,
Bilirsən məna var bu pərdələrdə...
Əgər geyinsən də xeyirdə, şərdə,
Sən bizə gələndə qara geyinmə!

1943

YADINDA VARMI?

Qız

Könlümün evini gündə min kərə
Uçurub qurduğun, yadında varmı?

Oğlan

Çəkib oğrun-oğrun oxun yayını
Sinəmə vurduğun yadında varmı?

Qız

Heç unutmamışam, gəlir yadıma,
Çiçəklər bağladım sənin adına.
Yanıb həzin-həzin eşqin oduna,
Şam kimi söndüyüm yadında varmı?

Oğlan

Söylə, unutdunmu, söylə, ey çiçək,
Lalə yanağından öpəndə külək,
Pərvanələr kimi gecə sübhədək
Başına döndüyüm, yadında varmı?

Qız

Söylə, unutdunmu, bir sərin axşam
Əl-ələ gəzirdik bağda mehriban?..
Dodağın üzümə toxunan zaman,
Əlindən qaçdığım, yadında varmı?

Oğlan

Maraltək qaçarkən, gözümdə, inan
Qara bir örpəyə büründü hər yan,
Aşıq Kərəm kimi düşüb dalından,
Dağları aşdığım yadında varmı?

Qız

Demə ayrı düşüb unutdum səni,
Ölüncə unutmaz sevən-sevəni
Deyəndə: "Özgəyə verirlər məni",
Boynunu bükdüyün yadında varmı?..

Oğlan

Çatdı qulağına acı bir xəbər;
Eşitdin yolumu gözləyir sofər.
Başını köksümə qoyub bir səhər,
Göz yaşı tökdüyün, yadında varmı?..

1943

BAKININ KÜLƏKLİ GÜNLƏRİ KİMİ

Nədən gözlərimə dəyir camalın,
Gah bir ilan kimi, gah pəri kimi...
Gündə milyon dəfə dəyişir halın,
Bakının küləkli günləri kimi

SƏN OLMADINMI?

Gözəlim, mən hara, aşıqlıq hara,
Bu sazı çaldıran sən olmadınmı?
Öz gizli eşqimi, pünhan dərdimi,
Aləmə bildirən, sən olmadınmı?

Alnında gah günəş, gah qara duman,
Hərdən gülər üzlü, hərdən pərişan,
Yaralı qəlbimi bəzən ağladan,
Bəzən də güldürən, sən olmadınmı?

Nizə kirpikləri "qana-qan" deyən,
Qoşa hörüklərə "cüt ilan" deyən,
Bir gündə min dəfə mənə can deyən,
Min dəfə öldürən, sən olmadınmı?

1946

YENƏ

Qara bulud, nə alıbsan üstümü? –
Küləklər dalından götürər yenə
Bölük-bölük edib qovar o ki var -
Səni bu dünyadan itirər yenə!

Mənim də öz gücüm, öz qüdrətim var,
Yetər harayıma xəzri, gilavar.
Gələr bürər-bükər səni parçalar,
Dağların dalına ötürər yenə!

Çəkil qara duman, etdiyin yetər.
Yanarsan, ahımdan getməsən əgər,
Bir nəmə yazmışam, çatar bu günlər –
Dərdimi dilbərə yetirər yenə!

Xoşdur öz yurdumun isti nəfəsi –
Xəzərin, Arazın, Kürün nəğməsi.
Geyib al donunu səhər müjdəsi,
Yarımdan bir xəbər gətirər yenə!

Sənə çəkil dedim, çəkil, a zalım!
Gedim, nə görmüşəm, burda mən qalım?!
Gün doğan ellərə şahin xəyalım
Məni şəhpərində götürər yenə!

Dilbərim, yerini çəkirəm inan,
Adını çəkmədim, adına qurban!
Hüsnünə yüzlərcə söz qoşub Osman,
Bir şeir də bu gün bitirər yenə!

Krım, Koktebel, 7 oktyabr, 1959

OLAR

(Bir məktuba cavab)

Elə demə, qan ağlaram, sevgilim,
Yadlar mənə gülər, sənə ar olar.
Duman qopar, alov çıxar başımdan,
Nəmli gözlərimdə dünya dar olar.

Bir addım yanımdan ayrı düşərkən,
Mənə dağ çəkirsən hər yazanda sən.
Bağlıdır qəlbinə qəlbim əzəldən,
Könüllər bir olsa etibar olar.

Daş deyil hicranı duymaya, insan,
Gəlir xəyalıma xəyalın hər an.
Öz könül dostundan, öz sirdaşından,
Canan vəfa görsə, vəfadar olar.

Qəlbimi satmadım mən hər yetənə,
İlqarım, peymanım möhkəmdir yenə.
Özgə nəyim vardır vəd edim sənə -
Şairin dövləti bir ilqar olar.

Yalta, may, 1939

ENMƏDİ

Uçdu könlüm quşu ağ buludlara,
Bu qara torpaqda fərəhlənmədi.
Yamaclar don geydi güldən, çiçəkdən
Şeirimin yarpağı tozələnmədi.

Bir fayton dağlardan tez endi, keçdi,
Təkərlər sinəmdən hərləndi keçdi.

Dilbərim qarşımdan bəzəndi keçdi,
Könlümün sarayı heç bəzənmədi.

Hayıma çatmadı nə səs, nə sədə[1],
Etibar görmədim mən bir kimsədə,
İlantək torpaqda süründümsə də,
Fikrim alçalmadı, könlüm enmədi.

1927

İNCİMƏ

Səhv etmişəm, acı dilim lal olsun,
Elə sözdən küsmə yarım, incimə!
Xəzan vurdu, gülüstanım qurudu,
Son çiçəyim, güllüzarım, incimə!

Eşqim kimi müqəddəsdir niyyətim,
Heyif, yoxdur yar yanında hörmətim –
Qazancımdır, bircə sənin töhmətin,
Yoxdur başqa heç bir karım, incimə!

Ömrü yoxdur dövlətin də, pulun da,
Könül adlı bir mülkü var qulun da.
Səbəbkarsan, gər pozulsa, yolunda
Ömür qoymuş, düz ilqarım, incimə!

Mən izincə addım-addım gəzərəm,
Nə mərhəmət istəyərəm, nə kərəm –
Hər zülmünə, sitəminə dözərəm
Təki məndən, sitəmkarım, incimə!

1928

[1] Səda

MƏNİ

Sağalıb deyirdim, qövr edir yenə
İncidir o köhnə yaralar məni.
Mərəzim tapılmaz, dərindədir çox,
İstər min yerimdən yaralar məni.

Şair, yaz ərzimi, mən deyim, sən yaz!
Səyyadam, seydimə bələdəm bir az –
Yarın müjgan oxu heç boşa çıxmaz,
Atdınmı, sinəmdən yaralar məni.

Gedər, əl kiridir, dövlət də, var da...
Durmaz məzəndəsi heç bir qərarda –
Gah baha qiymətə satar bazarda,
Gah ucuz qiymətə yar alar məni.

1926

DAĞLARIN

(*Aran köçü*)

Gəldi payız fəsli, saraldı, soldu
Əlvan çiçəkləri xalı dağların.
Oynaşır başında qara buludlar,
Yaxşı görünməyir halı dağların.

İndi yavaş-yavaş duman alçalır,
Yel vurur, hər kalış min hava çalır.
Yetim uşaq kimi kimsəsiz qalır,
Yamacı dağların, yalı dağların.

Dünyanın işləri sığmaz kamala,
Kim bilir sabaha kim ölüb-qala?
Barı-barxanalı düşübdür yola
Mələşə-mələşə malı dağların.

Çıxıb kəlləsinə Maymağın[1] qarı
Ta burda qalmağın yoxdur uyarı,
Qaynar bulaqları, axar suları
Yenə də özündə qalı dağların.

Demədim dağlarda boran yaxşıdır.
Yaradan yaxşıdır, quran yaxşıdır
Sarı buğda verən aran yaxşıdır!
Vaxtı keçdi bu vəfalı dağların

Qazmayurd, 1926

QIZLAR MAHNISI

Ey sevgilim, bu yerlərdə görünmə,
Anam duyub, üstümüzə göz olur.
Səni, məni istəməyən az deyil,
Aralıqda söhbət olur, söz olur.

Meh əsdikcə qızıl güllər öpüşür,
Şən bülbüllər bağçamızda ötüşür,
Səni görcək ürəyimə od düşür,
Görməyəndə bağrım başı köz olur.

Ürəyimdə bir arzu var, bir dilək;
Dolanıram bu dağlarda maraltək.
Deyirlər ki, bizə nişan gələcək,
Elin sözü əzəl-axır düz olur.

1946

MƏN BELƏ DEDİM

Cavan sərvə gün də, külək də dəydi;
O tez boy atardı toz görməsəydi –
Mən sağa döndərdim, yel sola əydi –
Külək belə dedi, mən belə dedim.

[1] Maymaq – dağ adıdır. Ona Ocaq dağı da deyilir.

Bir tülək-tərlana – nə var? – söylədim –
Yerdə tutmayırsan qərar? – söylədim.
O, şikar söylədi, mən yar söylədim,
Tülək belə dedi, mən belə dedim.

Bir mələk qarşımda qanad çalaraq
"Sürünmə yerlərdə – dedi – gəl uçaq!"
O "Göylər" söylədi, mən "Ana torpaq!"
Mələk belə dedi, mən belə dedim.

Hiylə də qəlbimə çox axtardı yol,
Tapmadı, ümidsiz qayıtdı min yol.
O mənə "can!" dedi, mən ona "məhv ol!"
Kələk belə dedi, mən belə dedim.

Eşqim xəyalımı uzağa çəkdi,
Bu sayad könlümü oylağa çəkdi,
Mən arana çəkdim, o dağa çəkdi.
Ürək belə dedi, mən belə dedim.

Fələk çox əlləşdi, gəlmədim dizə,
Fəqət "hökm olundu qəzadan bizə", –
Bir yol ayrıcında gəldik üz-üzə,
Fələk belə dedi, mən belə dedim.

Bakı, 20 may, 1946

NƏ BİLSİN

Qardaşım Qurbana

Bu yerlərdə, könül dostum, sinəmdə
Bir yaralı bülbül ağlar, nə bilsin?
Buruq-buruq duman çıxır başımdan,
Mən yanıram, qarlı dağlar nə bilsin?

Buz diləyir qızdırmadan üzülən...
Qayaların arasından süzülən,
Sədəfləri göy otlara düzülən
Sərin çaylar, buz bulaqlar nə bilsin?

Alınlardan puçur-puçur axır tər,
Çay quruyur, quma çökür gəmilər;
Bürkü vurur, külə dönür zəmilər –
Döşü qarlı, göy yaylaqlar nə bilsin?

Öyrənmişəm hələ kiçik yaşımda
Mən sirrini torpağın da, daşın da...
Dəli çaylar gecə-gündüz başımda
Gur şəlalə axıb çağlar nə bilsin?

Daha ömür baharıma qış düşür,
Baş ağarır, bel bükülür, diş düşür.
Neçin bizdən şux ceyranlar ürküşür?
Keçən günlər, ötən çağlar nə bilsin?

Soçi, Novaya Rivyera, 1954

GƏLMƏDİ

Məndən cida düşdü tülək tərlanım,
Hay vurdum, qıy vurdum yola gəlmədi.
Kasıblıq başımı saldı aşağı,
Əyilmiş qamətim bir düzəlmədi.

Çıxdım Dəvədaşa, baxdım dağlara –
Al-əlvan geyinmiş göy yaylaqlara;
De, Ağrı dağ hara, qocalıq hara?
O heç alçalmadı, heç yüksəlmədi.

Kim bilir yaşını qoca dünyanın?
Heyif, çox gödəkdir ömrü insanın...
Dedim, yolu düşər bizim cananın,
Dumanlı dağlara gələr, gəlmədi.

1927

VAR MƏNİM

Axşam, səhər seyrə çıxan, ay pəri
Gülüstanda gülüzarım var mənim!
Gözüm yoxdur, gülşənində, gülündə,
Öz bağçamda öz nigarım var mənim!

Hicranda hər günüm keçdi il kimi,
Soldu rəngim xəzan vurmuş gül kimi
Sədaqətə sadiq oldum qul kimi,
Etibara etibarım var mənim!

Əgər düşsə oylağıma güzarı,
Silinməzmi bu könlümün qübarı?
Gələr, deyə gecə-gündüz yolları
Gözləyirəm, intizarım var mənim!

Saçlarına nə sığal ver, nə bəzən!
Eşq oduna alışmaram bir də mən,
Əhdi-peyman müqəddəsdir özəldən.
Düz əhdinə düz ilqarım var mənim.

Öz elində, oz obanda gəz, dolan!
Bu yerlərdə nə qış, nə də yaz dolan!
Az işvələn, az cilvələn, az dolan:
Naz eyləmə, nazlı yarım var mənim!

QALIBDIR

Mahnı qoşdun çiçəklərə bir zaman,
İndi dolan bu yerləri, alış, yan.
Seyrangahda ceyranları ovlayan,
Ovçuların oylaqları qalıbdır.

Ərimişdir, dağ döşündən enib qar,
İndi dağda nə qoyun var, nə mal var,
Köçən gündən ağır ellər, obalar,
Gözü yolda yaylaqları qalıbdır.

Aşıq dedi: gözüm qaldı sənəmdə,
Nə onda bir cürət oldu, nə məndə.
Gözəllərin, zolaq-zolaq sinəmdə
Biləsiniz nə dağları qalıbdır...

1975

SƏNİ

(*S.Vurğun sayağı*)

Ocaq dağı oyatdımı
Sazım səni, sözüm səni?
Könül quşu qanadlandı,
Görən kimi gözüm səni...

Arzum budur saz əlimdə,
Şirin mahnılar dilimdə.
Bir dəli köhlən belində,
Qarış-qarış gəzim səni.

Sözü süzdüm süzgəcindən,
Qaçdım insanın gəcindən.
Min türfə gözəl içindən,
Özüm seçdim, özüm səni.

Qayaların qalanıbdır,
"Könlüm evi talanıbdır"
Neçə yerdən dolanıbdır
Mənim yolum, izim səni.

Quzqulaqlı dağ ətəyi,
Körpə baldırğan özəyi,
Dağgülü, qaymaqçiçəyi,
Misralara düzüm səni!

Sağım meşə, solum meşə,
Səni gəzdim mən həmişə.

Necə qıyım ay bənövşə,
Öz kökündən üzüm səni!?

Ocaq dağı, məni dinlə,
Özüm qəsdən bilə-bilə
İstəmədim sözlərimlə
Yorum səni, üzüm səni...

1961

GƏLSİN!

Mənimlə xoş məclis qurmaq istəyən
Qoy Ocaq dağının başına gəlsin!
Əgər Oyuqluda[1] yorulsa atı,
Barı Divəklinin qaşına gəlsin!

Mənim Telliqayam, Dəvədaşım var,
Hər yerdə öz dostum, öz sirdaşım var...
Bizim oylaqlara gəlməsin yadlar,
Mehriban dost gəlsin, aşina gəlsin!

Mənasız keçməsin bir an ömür-gün,
Yaşıl bir talada toy oldu bu gün.
Ürəkdən istərdim, belə toy-düyün,
Əryən cavanların başına gəlsin!

Dağlar zirvəsidir eşqim vüqarı...
Sözümdən incisə könlümün yarı,
Qoy elə çəksin ki, qoşa yayları,
Nizə kirpikləri qaşına gəlsin!

Kim hünərlə vurur iş külüngünü –
Dağ çapır həftənin altı gününü.
Haqqı var, kef üçün, yeddinci günü
Mehriban bulağın başına gəlsin.

[1] Oyuqlu, Divəkli – dağ adlarıdır.

Nə yazın dərdi var, indi nə qışın,
Bu gün siz nişandan, toydan danışın!
Məclisdə əyləşən dostun, tanışın
İstərəm bu mahnı xoşuna gəlsin!

Kirovakan, 1961

SAZIN DƏRDİ

Hər kim ustasıdır, asandır onun
Oğurluq, əyrilik, talan əlində.
Həqiqət özü də oyuncaq olur,
Yalançı əlində, yalan əlində.

Ya danəndə olun, ya olun dəni,
Oyuncaq etməyin siz hər yetəni,
Dindirə bilməzsən ölsən də məni,
Mən dilə gəlirəm çalan əlində.

Nə saz sevir onu, nə xoşlayır tar,
Yazıq məni, göyə hey atıb, tutar.
Qaça da bilmirəm, qalmışam naçar,
Hər şeydən yarımçıq qalan əlində.

Adam var, ulduzlar seyrinə çıxar,
Adam var, dağ çapar, gücü dağ yıxar.
Kəlin də kəlləsi qabıqdan çıxar,
Sənətdən kəl olan kalan əlində.

Maraqlanan yoxdur günah kimdədir,
Yazıq nə aşıqdır, nə xanəndədir.
Mən əsir olmuşam, səbəbi nədir,
Hər şeydən yarımçıq qalan əlində?

1976

BAĞDADA GETDİ

Dedilər ki, İraqdan
Bakıya bir dost gəlib.
Onu maraqlandırır,
Abşeronun havası.
Deyib çoxdan vurğunam
Kamanına, tarına,
Məni məftun edibdir,
Yanıqlı saz havası.
Söz axtardım tapmadım,
Harada tapmaq olar.
Bəlkə kömək edələr
Bu işdə mənə dostlar.
Şair Süleyman deyib –
Satışda saz olmayır,
Qonaq küsməsin ancaq.
Gümanım Osmanadır,
Bəlkə bir çarə qıldı,
Onu axtarıb tapaq.

Öz işimi bildim, hazırlıq gördüm
Min fikir dolaşdı başımda bu an.
Gərək yola salım, "yaxşı yol" – deyim
Bildim ayrılıram bu gün sazımdan.

Saz ürək deməkdir, döyünən ürək,
Ürəyi hədiyyə etmək çətindir.
Lakin əsirgəmək olarmı dostdan,
Çox da ki, ürəyin çox deyil, birdir.

Silib köynəyinə qoydum sazımı,
Mən hədiyyə etdim Bəndəroğluna.
Nigaran getməsin qonaq, qoy bu saz,
Xoş nəğmələr qoşsun onun yoluna.

Xalqımın qəlbiylə bir vuran ürək,
Ad qoydu hər elə, obada, getdi.
Bakıda kökləndi "Koroğlu" üstə
Getdi, ötə-ötə Bağdada getdi.

ARALI GƏZMƏ

Dostum, bu dünyanı gəz, dolaş, ancaq
Kim deyər məhləni, mahalı gəzmə?
Qane ol varına, imkanlarına,
Çox ucuz axtarma, bahalı, gəzmə!

Ən yaxşı həyatdır, ən gözəl tədbir,
Çırpınan ürəyi o təskin edir.
Maral da, ceyran da təbiət sevir,
Boz daşlar içində maralı gəzmə!

Unutma, gördüyün xoş mənzərəni,
Başı qarlı dağı, çaylı dərəni.
Ey ürək, qır, varsa bəndi-bərəni,
Heç eldən, obadan aralı gəzmə!

1983

AY ÜZÜ DÖNMÜŞ

Mənə sual verir hər ötüb keçən,
Çöllərə düşübsən söylə, sən nədən?
Mən qəm-kədər yığdım dağlar döşündən
Sən gül-çiçək dərdin, ay üzü dönmüş.

Dolandım oylağı, mən gəzə-gəzə,
Dağın zirvəsindən enəndə düzə.
Nagahan cığırda gəldik üz-üzə,
Üzünü döndərdin, ay üzü dönmüş.

Mən tay olmasam da ağaya, bəyə,
Minnətim olmadı heç vaxt özgəyə.
Kasıbdan varlıya yar olmaz – deyə,
İsmarıc göndərdin, ay üzü dönmüş.

Heç ata bilmədim qəmin yükünü,
Dəli kimi gəzdim mən bütün günü.
Məndən döndərəndə bildim üzünü
Bəxtimi döndərdin, ay üzü dönmüş.

AY MAMAOĞLU

(*Zarafatla*)

Yenə unutmadım səni,
Yada saldım, ay mamaoğlu.
Abad olmuş kəndinizdə,
Qonaq qaldım, ay mamaoğlu!

Hər kim gəldi – dedim – gözlə!
Oturdu gözləhagözlə...
Qonaqları quru sözlə,
Yola saldım, ay mamaoğlu!

Qışın ayazı, boranı
Bürümüş dağı, aranı...
Qapındakı mal-qaranı,
Dama saldım, ay mamaoğlu!

Çıxıbdır bu kəndin[1] adı,
Damağımda qaldı dadı...
Çörək, su verən olmadı,
Özüm aldım, ay mamaoğlu!

Görmə boz itin üzünü –
Hərdən ağardır gözünü...
Öz əlimlə mən özümü,
İşə saldım, ay mamaoğlu!

Axşamadək gözlədim düz,
Lap darıxdım işsiz-gücsüz...
Gördüm soyuyur südünüz,
Qatıq çaldım, ay mamaoğlu!

Ala pişik cumdu ətə,
Baş-ayağı verdim itə –
Toy evinin heyfini də,
Səndən aldım, ay mamaoğlu!

[1] Kirəcli Muğanlıya işarədir.

Belə bir sazaqlı gündə
Kəsmədiniz iki gündə...
Muğanlıda iki gündə
Lap qocaldım, ay mamaoğlu!

Muğanlı kəndi, 27 dekabr, 1946

DÜŞÜBDÜR

(*Zarafatla*)

Ay Haqverdi, səndən yaman yazıblar,
O material indi ələ düşübdür.
Qorxuludur, allah özü saxlasın,
Balam, işin lap əngələ düşübdür.

Niyə sağılmadı inəklər bu il?
Yağınız yox, pendiriniz quru gil...
Buzovların yarı maymaq, yarı şil –
Görünür naxıra kələ düşübdür.

Ağırlığı[1] öz vaxtında endirin!
Nə yığmışdın dağda oldu qan-irin;
Halal-haram nə var, yağın, pendirin
Aran köçü daşqın selə düşübdür.

Qohum-qonşu bu işlərdən halıdır,
Ev-eşiyin başdan-başa xalıdır.
Nəyin gedir, ye, özgənin malıdır,
Əlinə yağlıca sələ düşübdür.

Hanı təpəl kəlin, hanı boz atın?
Onlar öldü, sındı qolun-qanadın...
Heç görünmür o qabaqkı büsatın,
İndi işin dalkı vələ[2] düşübdür...

[1] Dağdan arana köçəndə, yağ dərilərini, motalları "ağırlığı" – nisbətən ağır şeyləri qabaqcadan endirirlər.

[2] İndi vəziyyətin yaxşı deyildir, mənasında işlənir.

Güzgüyə bax, ayılanda yuxudan!
Heç söz yoxdur, sənə boydan-buxundan,
Heyif, bircə səhf eyləyib "yaradan":
Ağzın əyri, burnun pələ düşübdür.

A kişi, de, nə görübsən araqda?
İçki deyilən şey qoymadın Qazaxda.
Eşitmişəm, gözün Qarapapaqda,
Özün kimi, bir gözələ düşübdür.

Hanı, varı, bəs Mülxüsə xalanın?
Hanı xəngəl, nə tez çıxdı yalanın?!
Mən görürəm, yapıxıbdır palanın, –
Yenicə dalından, şələ düşübdür.

Çox sağ olun, itirmərəm zəhməti,
Ağköynəyin malı-mülkü, neməti,
Haqverdinin adı, sanı, hörməti
Çoxdan bəri dildən-dilə düşübdür.

Düşmən, ey dost, öz dilindir, yad deyil...
Qurtulmazsan qaçaq gəzsən lap yüz il –
Mən yeməmiş əl çəkmərəm onu bil –
Gözüm sizdə bir xəngələ düşübdür.

Qazax, 4 noyabr, 1950

Qocalıq

QOCALIQDA

İtirdiyi illər düşür yadına,
Qoca hesablayır təsbehlə bir-bir.
Ömrün qiymətini, günün qədrini
İnsan qocaldıqca daha çox bilir.

1976

QOCALIĞIN QAZANCI

Səadətdir cavanlıq, çalışın, qocalmayın
Ağsaqqalın güdməyin qazancını, nəfini.
Bircə o yaxşıdır ki, qocanı görən kimi,
Cavanlar yol verirlər, soruşurlar kefini.

1976

KÖÇÜB GEDİBDİR

Köhnə oylağımı gəzirəm, ancaq
Axşamdır, hər yana qaranlıq çökür.
Dayanıb baxıram, çayqarışana –
Axıb qıjıltıyla gedir Xram, Kür.

Ey ağıllı Xram, ey dəlisov Kür,
Siz düz deyirsiniz mənə deyin bir,
Neçə milyon canlı burda ömr edib,
Sizin suyunuzdan içib gedibdir.

Ömrünüz bağlıdır keçmiş illərə,
Şəfa gətirdiniz bizim ellərə.
Deyin, kimlər gəlib bu sahillərə,
Kimlər bu yerlərdən köçüb gedibdir.